**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN**
**KOLLEGİYASI**

# Q Ə R A R
**№ 60-3**

**Bakı şəhəri** **08 iyul 2022-ci il**

## BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına dair Azərbaycan Hökumətinin beşinci və altıncı dövri məruzəsinin dinlənilməsinə hazırlıqla əlaqədar Tədbirlər Planının təsdiq edilməsi barədə

BMT–nin Uşaq Hüquqları üzrə Komitəsində Uşaq Hüquqları haqqında Konvensiyasına dair Azərbaycan Hökumətinin beşinci və altıncı dövri məruzəsinin dinlənilməsi 2023-cü il yanvar - fevral ayında Cenevrə şəhərində nəzərdə tutulmuşdur. Bu məqsədlə hazırlıq işlərinə dair Tədbirlər Planı hazırlanmışdır.

Tədbirlər Planında BMT–nin Uşaq Hüquqları üzrə Komitəsi tərəfindən 2012-ci ildə ölkəmizlə bağlı tövsiyyələrin icrasına dair yenilənmiş məlumatların toplanılması, dövlət orqanları və qeyri hökumət təşkilatları ilə görüşlərin təşkili, Cenevrədə iştirak edəcək sessiyada nümayəndə heyətinin tərkibinin müəyyən edilməsi və səfərlə bağlı digər təşkilati məsələlər nəzərdə tutulmuşdur.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyası

**Q Ə R A R A  A L I R:**

1. BMT–nin Uşaq Hüquqları haqqında Konvensiyasına dair Azərbaycan Hökumətinin beşinci və altıncı dövri məruzəsinin dinlənilməsinə hazırlıqla əlaqədar Tədbirlər Planı təsdiq edilsin. (Əlavə olunur)

2. Dövlət Komitəsi aparatının müvafiq struktur bölmələri Tədbirlər Planının icrasını Tədbirlər Planında göstərilən icra müddətləri ərzində təmin etsinlər.
3. Kadr və kargüzarlıq şöbəsinin müdir müavini Sevinc Bilalova Qərarın surətinin Komitənin aidiyyəti şöbələrinə təqdim edilməsini təmin etsin.
4. Qərarın icrasına nəzarət öz səlahiyyətləri daxilində Dövlət Komitəsinin sədr müavini A.Sofiyevaya və aparat rəhbəri C.Rəhmətullayevaya tapşırılsın.

**Kollegiyanın sədri** **Bahar Muradova**